# DÜNYADA İSLAM VƏ MÜQƏDDƏS „QURANİ-KƏRİM"İN İQTİSADİ İDEYALARI



*(əvvəli ötən sayımızda)*

**6.7. Əməksevərlik**

İnsan dünyanın əşrəfi – ən ali varlığıdır. İnsani amillərdən birincisi isə əməkdir. İndiyə qədər bütün inkişaf və tərəqqi Allahın iradəsi, insanın əqli və gücü, təhsilin və elmin vasitəsi ilə bugünkü səviyyəyə gəlib çatmışdır. İnsanın bacarmadığı iş, demək olar ki, yoxdur. Müqəddəs «Qurani-Kərim»də deyilir ki, ***«İnsana ancaq öz əməli, öz zəhməti qalar! [İnsan dünyada var-dövlətlə deyil, etdiyi əməllərlə ad qoyar…]»*** (53: Ən-Nəcm («Ulduz») surəsi, 39-cu ayə, səh. 540).

Əmək fərdin və cəmiyyətin tələbatını ödəmək üçün insanın məqsədyönlü, maddi (fiziki əmək) və qeyri-maddi (əqli əmək) fəaliyyətidir.

O, insanı ucaldır və inkişaf etdirir. Bir işlə məşğul olan insan heç zaman ac qalmaz, korluq çəkməz və heç kimə möhtac olmaz. Onun xoşbəxtliyi məhz əməkdədir. İnsan öz əməyi, işi və əməli ilə tanınır. Kiminsə hesabına yaşamağa göz dikən adam heç vaxt yaxşı yaşaya bilməz. Belə bir deyim vardır: dünyada müvəqqəti olan, ötüb keçən cavanlığın gözəlliyi, buludun kölgəsi və məqamdır (vəzifə, yer və s.). Dünyada əbədi olan elmdir, əməldir və o biri dünyadır. Elmin və əməlin nəticələri bu dünyada, hamısı, hər biri isə o biri dünyada əbədi qalır. Buna görə də insan gecədən istifadə edib dincəlməklə, gündüzlər daim işləməli, qurub-yaratmalı və gələcək nəslə ötürməlidir. Göstərilir ki, «Gecə və gündüz yatıb dincəlməyiniz [gecə istirahət etməyiniz, gündüz əlləşib çalışmağınız], nemətindən ruzi axtarmağınız da Onun qüdrət əlamətlərindəndir» (30: Ər-Rum («Rumlular») surəsi, 23-cü ayə, səh. 398). Ona görə də ***«Qoy [dünyada] çalışanlar bunun üçün [belə bir əbədi səadət uğrunda] çalışsınlar!»*** (37: Əs-Saffat («Cərgə-cərgə duranlar») surəsi, 61-ci ayə, səh. 446).

**6.8. İqtisadi nemətlər qazanılmalıdır**

Allahın yer üzündə verdiyi bütün nemətlər bütün insanlar və hamı üçündür. Hamını Allah yaratmışdır və bu nemətlərdə hamının haqqı var. Ruzini verən də Allahdır. Xaliq buyurur ki, səndən hərəkət – məndən bərəkət. Hərəkət etməyənə, işləməyənə və zəhmət çəkməyənə heç nə göydən düşmür, bu nemətlər qazanılmalıdır. Ruzi verilirsə də, zəhmət çəkib onun qədrini bilmək, əldə etmək və istifadə etmək insandan asılı olur.

Müqəddəs «Qurani-Kərim»in «Əbəcə» surəsinin 24-32-ci ayələrində göstərilir ki, «İnsan hələ bir yeməyinə baxsın! [Görsün ki, ona necə ruzi verdik]», ***«Biz yağışı bol yağdırdıq», «orada dən [dənli bitkilər] göyərtdik», «Üzüm və yonca», «Zeytun və xurma bağları», «Növbənöv meyvələr və ot, ələf yetişdirdik», «[Bütün bunlar] sizin və heyvanlarınızın istifadəsi üçündür!»*** (80: Əbəcə («Qaşqabağını tökdü») surəsi, 24-32-ci ayələr, səh. 617).

Əgər zəhmət çəksən, əmək sərf etsən, tər töksən, dağın içindən qızıl, dəryanın içindən balıq, torpaqdan buğda, daşdan su da çıxar.

***«O iki dənizdən inci və mərcan çıxar» (55: Ər-Rəhman («Rəhmli olan Allah») surəsi, 22-ci ayə, səh. 547).***

«Yeri yarıb [oradan] bulaqlar qaynatdıq» (54: Əl-Qəmər («Ay») surəsi, 12-ci ayə, səh. 542). Deyildiyi kimi, Allahın verdiyi ruziyə heç kəs mane ola bilməz: ***«Allahın insanlara əta etdiyi mərhəmətə [verdiyi nemətə, ruziyə] heç kəs mane ola bilməz»*** (35: Fatir («Yaradan») surəsi, 2-ci ayə, səh. 429). Təkcə bu nemətləri halal qazana biləsən. Yatsan və gözləsən, heç nə olmaz.

**6.9. İnsanlara yardım**

Oxumayan, öyrənməyən, savadsız, elmsiz, sənəti olmayan, işləməyən adam yoxsul olar. Fiziki qüvvəsi olan adam yoxsul hesab edilmir. Allah ona sağlam can və qüvvə verib. Əlil olan və təbii fəlakətdən çıxılmaz vəziyyətə düşən adam yoxsul ola da bilər. Canı sağ olub əl açan adama pul verməmk özü günahdır. Ona görə ki, o yatır, tənbəlləşir, zəhmət çəkmir, yalnız ona nəsə veriləcəyini gözləyir. Bu da onu məhvə aparır. Xəstəyə, əlilə və fəqirə yardım etmək insani borcdur. Allah rizası üçün yoxsullara verilən sədəqə və yardım dünya malının bərəkətini artırar və Allah tərəfindən mükafatlandırılar.

Yardım təkcə kiməsə verilən qida və ya pul mənasında nəzərdə tutulmur. Zəngin insanların tikdiyi və istifadəyə verdiyi məktəblər, xəstəxanalar, salınan körpülər, yollar, çəkilən sular, savad vermək, oxutdurmaq, sənət öyrətmək, varidatından fond yaradıb gələcək nəslə qoymaq və s. ən böyük insani yardımlardır. Var-dövlət insanları sınamaq, cəzalandırmaq və mükafatlandırmaq üçündür.

Belə hesab edilir ki, Böyük Allahın ən çox sevdiyi şəhərlərdən biri də (Məkkə kimi) elə Azərbaycanın paytaxtı, Abşeron yarımadasındakı Bakı şəhəridir. Çünki yer üzərində olan əlliyə qədər meyvə içərisində Abşeron yarımadası – Bakıda daha yaxşı bitən əncir və zeytuna and içilir və diqqət verilir:

***1. And olsun əncirə və zeytuna;***

***3. And olsun bu təhlükəsiz, qorxusuz və xətərsiz şəhərə [Məkkəyə] ki,***

***4. Biz insanı ən gözəl biçimdə yaratdıq!] (95: Ət-Tin («Əncir») surəsi, 1, 3-4-cü ayələr, səh. 636). İnsanı ən gözəl edən də Allah tərəfindən ona verilən şüur, zəka, baş, dərrakə, ağıl, bilik və elmdir.***

«Qurani-Kərim» cəmiyyətdə insanlara xitab edərək göstərir ki, «Sən pisliyi yaxşılıqla dəf et! [Qəzəbə səbirlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlamaqla cavab ver!] (41: Fussilət surəsi, 34-cü ayə, səh. 483).

Hazırda bəzi müsəlman ölkələrində mövcud olan iqtisadi geriliyin əsas səbəbi məhz cəhalətdir. Müqəddəs kitabda da göstərilir ki, bu vəziyyətdən yalnız həmin ölkələrdə təhsili inkişaf etdirməklə və elmi istiqamət götürməklə çıxmaq olar.

**6.10. Elmin gücü və «Quran»ın bəzi elmi möcüzələri**

İslam ehkamına görə, «Qurani-Kərim»dəki elm və biliklər üç qisimdir. Birinci qismə Allah təalanın isimləri və sifətləri, ikinci qismə yalnız Məhəmməd əleyhissalama (s) bildirilən, onun varisləri – elmdə qüvvətli olan alimlər, üçüncü qismə Allahtəalanın Məhəmməd əleyhissəlama (s) öyrətmiş və ona həmin bilikləri öz ümmətinə də öyrətməyi əmr etmiş biliklər daxildir. İkinci qismə daxil olan biliklər isə ağıl, axtarış, tədqiqat, təcrübə və elmin gücü ilə dərk edilə bilər. Göründüyü kimi, burada alimlər Məhəmməd əleyhissəlamın (s) varisləri səviyyəsinə qaldırılır və çox yüksək qiymətləndirilir.

Bəzi «Quran» ayələri dünyanın gələcək elmi kəşflərini əvvəldən bildirir. Elə ayələr vardır ki, hələ o dövr üçün ağla gəlməyən məsələlərdən bəhs edilir. Məsələn, iki dəniz haqqındakı ayələrdə göstərilir ki, «[suları şirin və acı olan] iki dənizi O qovuşdurdu [bir-birinə qovuşmaq üçün açıb-buraxdı]» (55: Ər-Rəhman («Rəhmli olan Allah») surəsi, 19-cu ayə, səh 546).

«Amma onların arasında maneə vardır, bir-birinə qarışmazlar [özləri üçün müəyyən edilmiş həddi aşmazlar]» (55: Ər-Rəhman («Rəhmli olan Allah») surəsi, 20-ci ayə, səh. 546).

14 əsr bundan əvvəl «Quran» ayələrində bildirilən bu xüsusiyyəti okeanoloqlar XX əsrdə kəşf ediblər ki, Aralıq dənizinin suyu Cəbəllütariq boğazında Atlantik Okeanı ilə qarşılaşır. Ancaq bu iki su bir-birinə qarışmır. Çünki suların hər birinin özünəməxsus temperaturu, sıxlığı, hətta duzluluğu var. Buna görə də iki dəniz arasında gözəgörünməz bir sərhəd vardır. Bu xəbərin əsl möcüzəvi tərəfi insanların nə fizikadan, nə kimyadan, nə də okeanologiya elmindən xəbərdar olmadığı bir dövrdə verilməsidir.

Həmçinin, təqribən 1000 il keçəndən sonra 1728-ci ildə rus əsilli Danimarkalı səyyah V.Berinq qənaətə gəldi ki, Amerika ilə Asiyanın Şimal dəniz ərazisinin (indiki Berinq boğazını keçdikdən sonra kəşf olundu ki, belə bir su qovuşacağı – iki müxtəlif dadlı və rəngli (biri o birindən bir qədər tünd göy) su qovuşacağı Berinq boğazındadır. Bu kimi faktlar sübut edir ki, ***«Rəbbimiz elmi ilə hər şeyi ehtiva etmişdir…»*** (7: ƏL-Əraf («Sədd») surəsi, 89-cu ayə, səh. 135).

Xüsusilə son yüz ildə elmin surətli inkişafı nəticəsində dünyada ildən-ilə yeni modelləri yaranan minik vasitələri haqqında: ***«Sizin minməyiniz və sizin üçün bəzək olsun [xoş olsun] deyə atı, qatırı uzunqulağı O yaratdı. Allah hələ sizin bilmədiyiniz neçə-neçə şeylər [nəqliyyat, minik avtomobilləri və s.] də yaradacaqdır»*** (16: Ən-Nəhl («Bal arısı») surəsi, 8-ci ayə, səh. 235). Hələ 1400 il bundan əvvəl «Quran» nazil olarkən nəinki minik avtomobilləri, heç at arabaları da yox idi. İndi isə ayədə deyildiyi kimi, neçə-neçə nəqliyyat növləri – rahat minik avtomobilləri, uçan avtomobillər, sürücüsüz avtomobillər, uçan təyyarələr, robotlar, ərşə gedib çatan kosmik peyklər və s. yaranmışdır. Bu da insanların xoş yaşamasına səbəb olur. Bunu Böyük Allah öz «Quran»ı vasitəsilə bəndələrinə hələ o vaxt deyirdi.

Elm zəhmətlə, əməklə və savadla əldə edilir. Elmdə əvvəl zəhmət çəkən, əmək sərf edən sonra xalq arasında, cəmiyyətdə, dünyada tanınar, şəxsiyyətə çevrilər, əbədiləşər, onun əməyindən, əməyinin-biliyinin və elminin nəticələrindən daima millət, xalq və dövlət faydalanar. Elm Böyük Allahın qüdrətilə seçmə insanlara verilən ən dəyərli xəzinədir ki, bunun nəticələrindən bütün bəşəriyyət bəhrələnir, xeyir görür, rahatlanır və inkişaf edir. Elmin nəticəsində evdə yanan elektrik lampası, əlimizdəki telefon, baxdığımız televizor, uçduğumuz təyyarə, xəstəni sağaldan dərman və s., və i.a. yaranmışdır. Lakin elm bunu da sübut edir ki, Allahın insana verdiyi beynin gücündən hələ 2020-ci ildə 8 faiz istifadə edilir. Qalanı qabaqdadır. Ona görə də hər bir alim elmi-tədqiqat aparıb dirəndiyi zaman deyir: qalanını, sonrasını Allah bilər!

**Hacı Müzəffər Məmmədov,**
**i.e.f.d., ADİU-nun dosenti,**
**Azərbaycan Respublikasının**
**Əməkdar müəllimi,**
**"Qızıl Qələm" mükafatı laureatı**